*UOT 371*

***Gülnarə Qurban qızı İskəndərova***
*Azərbaycan Dillər Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0000-6172-6428*
https://doi.org/10.69682/azrt.2024.91(2).100-104

# MÜASİR QİYMƏTLƏNDİRMƏ TEXNOLOGİYALARININ ÜSTÜNLÜKLƏRİ VƏ ÇATIŞMAZLIQLARI

***Гюльнара Гурбан гызы Искендарова***
*докторант по программе доктора философии*
*Азербайджанского Университета Языков*

# ПРЕИМУЩЕСТВА И НЕДОСТАТКИ СОВРЕМЕННЫХ ТЕХНОЛОГИЙ ОЦЕНИВАНИЯ

***Gulnara Gurban Iskandarova***
*doctorial student in the program of doctor of philosophy of*
*Azerbaijan University of Languages*

# BENEFITS AND DRAWBACKS OF CONTEMPORARY ASSESSMENT TECHNOLOGIES

**Xülasə.** Məqalədə qiymətləndirmə texnologiyalarının üstünlükləri və çatışmazlıqları öz əksini tapmışdır. Təlim keyfiyyətinin yoxlanılması üzrə ən etibarlı mənbə obyektiv və düzgün qiymətləndirmədir. Tələbələrin təhsil nailiyyətlərini izləmək və dəyərləndirmək üçün müraciət olunan qiymətləndirmənin çox sayda müxtəlif növləri mövcuddur. Qiymətləndirmə növlərinin də ayrı – ayrılıqda onları bir-birindən fərqləndirən müsbət və mənfi cəhətləri vardır. Hər bir qiymətləndirmə növü müxtəlif bacarıqları qiymətləndirmək üçün istifadə olunur ancaq bununla yanaşı tədrisin irəliləyişini izləmək üçün təlimin müxtəlif mərhələlərində tətbiq olunur.

***Açar sözlər:*** *qiymətləndirmə, yoldaş qiymətləndirməsi, özünü qiymətləndirmə, portfolio, təqdimat*

**Резюме.** В статье рассматриваются как преимущества, так и недостатки технологий оценивания. Достойная и объективная оценка — самый надежный способ проверить качество обучения. Различные виды оценивания используются для наблюдения и оценки успеваемости учащихся. Каждый тип оценивания также имеет свои положительные и отрицательные стороны, отличающие их от другого. Все виды оценивания используются для оценки различных умений и прогресса обучения на различных этапах обучения.

***Ключевые слова:*** *оценивание, товарищеское оценивание, самооценивание, портфолио, презентация*

**Summary.** The article considers the benefits and drawbacks of evaluation technologies. An accurate and objective evaluation are the most reliable method of measuring the quality of instruction. The academic accomplishments of students are tracked and evaluated using a variety of evaluation methods. The various assessment kinds differ from one another in both positive and negative ways. Each sort of assessment is used to evaluate various skills and track learning progress at various learning stages.

***Key words:*** *Evaluation, peer evaluation, self-evaluation, portfolio, and presentation are some related terms*

Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsinin əsas göstəricisi istənilən halda tələbənin təlim nəticələridir. Həmin nəticələrin obyektiv və düzgün qiymətləndirilməsi isə keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə sayılır. Bunun üçün saysız-hesabsız qiymətləndirmə texnologiyaları-

na müraciət edilir. Xarici dilin tədrisi prosesində qiymətləndirmə texnologiyalarından yazacağıqsa, onda 4 əsas bacarığın mükəmməl şəkildə öyrədilməsinin çox önəmli olduğunu da vurğulamalıyıq. Bunlar oxu, yazı, danışıq və dinləmə bacarıqlarıdır. Bundan başqa məktəbdaxili qiymətləndirmənin formativ, summativ və diaqnostik növləri olduğu kimi, ali məktəblərdə də qiymətləndirmənin bu üç növünə rast gəlinir.

Hal-hazırda müxtəlif qiymətləndirmə texnologiyalarının müsbət və mənfi tərəfləri ilə tanış olacağıq.

"Assessment Handbook"-a əsasən qiymətləndirmənin iki əsas metodu var: imtahanlar və kurs işləri (Assessment Handbook, 2021: s.7)

Yazılı imtahanların üstün cəhətləri bunlardır:

1.Qənaətcillik.

2.İmkanların bərabərliyi (tələbələr eyni vaxtda, eyni suallar üzərində işləyirlər)

3.İmtahan cavab vərəqəsinin kimə aid olmasının bəlli olması.

4. Müəllim heyətinin bu cür imtahanla tanışlığı.

5. Tələbələrin öyrənmə həvəsinin artırılması.

Yazılı imtahanların çatışmayan cəhətləri bunlardır:

1.Tələbələr öz performansları haqqında çox az rəy ala və ya heç bir rəy ala bilmirlər.

2.Texnika çox vacibdir. (İmtahanlar tələbələrin fənni yaxşı öyrənmələrindən çox, imtahan suallarını nə qədər yaxşı öyrəndiklərini ölçməyə meyllidir.

3.İmtahanlar real deyil, tələbə fəaliyyətinin və ya performansının anlıq görüntüsünü əks etdirir. (Burada başqa amilləri, məsələn, tələbini həmin gün ruh və mental halını, sağlamlıq vəziyyətini də nəzərə almaq lazımdır).

Universitetlərdə ən çox müraciət olunan qiymətləndirmə üsullarından biri də çoxseçimli testlərdir. Məhəmməd Nuriyev "Ali məktəblərdə formativ qiymətləndirmənin tətbiqetmə imkanları" adlı məqaləsində çoxseçimli sualların üstün və çatışmayan cəhətləri barədə qeyd etmişdir. (M. Nuriyev, s.23)

Çoxseçimli testlərin üstün cəhətləri isə bunlardır:

1. Tədris proqramını daha çox əhatə etməsi.

2. Çox seçimli testlər tələbələrin nə qədər sürətli yazdığını yox, nə qədər sürətli düşündüyünü yoxlayır. (Sualları tərtib edərkən tələbələrin səviyyəsi nəzərə alınmalıdır).

3. Qiymətləndirmə zamanı vaxta və enerjiyə qənaət mümkündür. Belə ki xüsusi optik test yoxlayıcı cihazlar vasitəsilə bunu etmək mümkündür.

4. Biliklərin müxtəlif səviyyələr üzrə qiymətləndirilməsinin mümkünlüyü.

5. Güman yolu ilə düzgün cavabın tapılması ehtimalının az olması.

6. Çətinlik dərəcəsi müxtəlif olan sualların tərtib edilməsi və hazırlanması.

Çoxseçimli testlərin çatışmayan cəhətləri isə bunlardır:

1.Hazır olan cavablardan istifadə edilməsi.

2.Sualların tərtib edilməsinə çox vaxt tələb olunur.

3.Güman yolu ilə düzgün cavabın verilməsi ehtimalının olması.

4.Tələbə seçilmiş mövzudan kənarda olan biliklərini nümayiş etdirə bilmir.

5.Keyfiyyətli tapşırıqları hazırlamaq asan deyil.

Tələbə nailiyyətlərinin qiymətləndirmə üsullarından biri esselərdir. Esselərin müsbət cəhətləri bunlardır:

1."Ən yaxşı" tələbələr özlərini esse vasitəsilə fərqləndirə bilirlər.

2.Esselər şagirdin öyrənmə dərinliyinin nə səviyyədə olduğunu əks etdirə bilir. Mövzu haqqında sərbəst yazmaq təhsilalanın materialı necə başa düşdüyünü nümayiş etdirir.

Esselərin mənfi tərəfləri bunlardır:

1.Esse yazmaq özlüyündə bir sənətdir. Bəzi tələbələr bunu bacarmırlar, yəni esse yazma bacarıqlarına sahib deyillər, çünki onlar bunu necə yaxşı etmək barədə heç vaxt öyrədilməyiblər. Bunu təkmilləşdirənlər isə güclü və ya zəif tərəflərindən asılı olaraq qiymətləndirirlər.

2.Esseləri obyektiv qiymətləndirmək o qədər də asan deyil və vaxt tələb edir. Hətta sizin yaxşı düşünülmüş meyarlarınız olsa belə, qiymətləndirmiş hesab etdiyiniz essenin üzərinə yenidən qayıda bilərsiniz.

3. Esse yazmaq çox vaxt tələb edə bilər.

4. Bu subyektiv qiymətləndirmə təhlükəsi olan qiymətləndirmə üsulu hesab oluna bilər.

Biz formativ qiymətləndirmə növündən danışanda təbii ki, qrup qiymətləndirməsi, yol-

daş qiymətləndirməsini də vurğulamağımız doğru olardı.

Rusiyanın Nijni-Novqorod şəhərində yerləşən Milli Araşdırma Universitetinin pedaqoji elmlər namizədləri olan İ.A. Malinina və T.P. Popovanın birgə hazırladıqları "Плюсы и минусы применения метода взаимного оценивания в подготовке инженеров" adlı məqaləsində tələbələr arasında sorğu keçirmişlər və sorğu zamanı tələbələrin yoldaş qiymətləndirməsi barədə fikirlərini öyrənmişlər. Bu qiymətləndirmənin faydaları və çatışmazlıqları barədə təhsilalanların fikrini nəzərinizə çatdırırıq (M.İ. Aleksandrovna, P. T. Petrovna, 2020, s. 43).

| Yoldaş qiymətləndirməsinin müsbət tərəfləri | Yoldaş qiymətləndirməsinin mənfi tərəfləri |
|---|---|
| 1. Səhvlərin düzəldilməsi | 1. Tələbələrin öz mövcud biliklərinə olan inamsızlığı |
| 2. Öyrənilən mövzunun daha yaxşı başa düşülməsi | 2. Aşkar edilməmiş səhvlər |
| 3. Görülən işin keyfiyyətinin artırılması | 3. Münasibətlərin korlanmaq qorxusu |
| 4. Əks-əlaqənin tezliyi və yeni ideyalar | 4.Yoldaşların qiymətləndirməsində təcrübə azlığı |
| 5. Qarşılıqlı məsuliyyət | 5. Həmyaşıdların düzəlişlərinə inamın olmaması |
| 6. Ünsiyyət və ədalətli qiymətləndirmə | 6. Zaman itkisi |

Bununla belə qarşılıqlı yoldaş qiymətləndirməsi tələbələrin nəinki xarici dil səriştələrini artırır, eləcə də onların tənqidi düşünmə, detallara diqqət etmə qabiliyyətini inkişaf etdirir, onların öyrənmə prosesinə cəlb olunmasını sürətləndirir.

Qarşılıqlı yoldaş qiymətləndirməsi ilə yanaşı özünü qiymətləndirmə də var ki, bunun da özünün həm müsbət, həm də mənfi tərəfləri var. Özünü qiymətləndirmə zamanı tələbələr əvvəlcədən müəyyən edilmiş meyarlar siyahısından istifadə edərək bir-birlərini qiymətləndirirlər.

| Özünü qiymətləndirməsinin müsbət tərəfləri | Özünü qiymətləndirməsinin mənfi tərəfləri |
|---|---|
| Razılaşdırılmış qiymətləndirmə meyarlarının olması o deməkdir ki, tapşırığın nəticələri ilə bağlı az qarışıqlıq ola bilər. | Burada müəllimlər tələbələrə proses barəsində məlumat verir, eləcə də onları təlimatlandırır. Bu isə müəllimə əlavə iş yükü deməkdir. |
| Tələbələrin iştirakını təşviq edir və məsuliyyətini artırır. | Özünü qiymətləndirmənin şişirdilmiş qiymətlərin təqdim edilməsi prosesi kimi qəbul edilmə riski var. Bu baxımdan etibarsız hesab oluna bilər. |
| Tələbələrin mühakiməetmə bacarıqlarının inkişafına fokuslanır. | Tələbələr qiymətləndirməni aparmaq üçün özlərini zəif hazırlıqlı hiss edə bilərlər. |
| Bəzi tələbələr bunu ədalətli hesab edirlər, çünki hər biri tələbə öz-özünü mühakimə edir. | Özünü qiymətləndirmə tələbə ilə başlayır və həmin tələbə ilə də başa çatır, zəif tərəflər üzərində işləmək məsələsi qalır. Qiymətləndirmə prosesinə başqa bir şəxs daxil edilərsə, dəyişməyə və zəif tərəflər üzərində işləməyə kömək edəcək cavabdehlik yaradıla bilər. |
| Tələbələr bu prosesdə iştirak edirlər və burada iştirak etməyə təşviq olunurlar. | |
| Tələbələrə öz həmyaşıdlarının özlərini necə qiymətləndirmələrini görməyə imkan verir. | |

Universitetlərdə ən çox yayılmış qiymətləndirmə üsullarından biri də təqdimatlardır. Sərbəst işlərin və kurs işlərinin əksəriyyəti təqdimat formasında verilir və qiymətləndirilir. Təbii ki, təqdimatların yaxşı alınması tələbələrdən yazı bacarığından çox, ünsiyyət, kommunikativ bacarıqlar tələb edir. Bu da öz növbəsində onların iş dünyasına atılmaları zamanı ən yaxın köməkçisinə çevrilir.

Təqdimatların üstün cəhətləri bunlardır:

1.Kimin fəaliyyətinin qiymətləndirildiyi şübhəsiz bəllidir. Tələbələr fərdi şəkildə təqdimatlar verən zaman əmin ola bilərlər ki, qiymətləri də özlərininkidir.

2.Tələbələr təqdimatların hazırlanmasına dson dərəcə ciddi yanaşırlar. Bunun üçün onlar əvvəlcədən araşdırma aparır və hazırlaşırlar.

3.Təqdimatlar birgə işi əhatə edə bilər, yəni təhsilalan fərdi şəkildə deyil, eləcə də qrupla birgə təqdimat hazırlaya bilər.

4.Təqdimatlar geniş spektrli əsas bacarıqların qiymətləndirilməsinə imkan verə bilər. Buraya şifahi ünsiyyət, materialı planlaşdırmaq və qurmaq bacarığı, kompüter texnologiyalarından istifadə (məsələn, PowerPoint proqramından istifadə) və s. daxildir.

Təqdimatların mənfi tərəfləri isə bunlarıdr:

1.Auditoriyada tələbələrin hər birinin təqdimat nümayiş etdirməsi böyük vaxt itkisinə səbəb olu r.

2. Bəzi tələbələr bu təcrübəni travmatik hesab edirlər, lakin çoxluq üçün bu, əlverişlidir.

3. Təqdimatlar anonim ola bilməz və bu səbəbdən bəzən qərəzliliyi aradan qaldırmaq çətin ola bilər.

Hazırda istər akademik, istər əmək bazarı, istərsə də əmək bazarında böyük populyarlıq qazanmış vasitələrdən biri də portfoliolardır. Məqsəd və sahəsinə görə portfolioların da bir neçə növü vard: peşəkar, akademik, yaradıcı, biznes portfliolar. Lakin bu qiymətləndirmə texnologiyasının da mənfi və müsbət tərəfləri var:

| Portfolioların müsbət tərəfləri | Portfolioların mənfi tərəfləri |
|---|---|
| Portfoliolar tələbələr haqqında daha çox məlumat verir və onları gördükləri işlər arasında əlaqələr yaratmağa təşviq edir. Tələbələr iş axtaran zaman belə portfoliolar onlara bacarıqlarını nümayiş etdirmək üçün əla vasitədir. | Tələbələr portfolio əsaslı yanaşmadan istifadə edərkən əlavə dəstəyə ehtiyacları ola bilər. |
| Portfoliolar inkişafı əks etdirə bilər. Digər qiymətləndirmə formaları daha çox inkişaf səviyyələrinin "anlıq görüntüləri"ni əks etdirdiyi halda portfoliolar tələbələrə şəxsi və akademik kontekstdə öyrəndiklərini və bacarıqlarını yerləşdirməyə və onları nümayiş etdirməyə imkan verir. | Portfoliolara çox baxmaq lazımdır! Onları qiymətləndirmək uzun müddət çəkə bilər. Burada potensial işəgötürənlər üçün istənilən qədər informasiya olsa da, çox zaman onlar kağız üzərində olan siyahı ilə hərəkət etməyə üstünlük verirlər. |
| Portfoliolar bacarıq və biliklərlə yanaşı, münasibət və dəyərləri də əks etdirə bilər. Bu da işəgötürənlər üçün düzgün seçim etməyə şərait yaradır. | Portfolioları obyektiv qiymətləndirmək çox çətindir. Çünki burada o qədər kreativlik olur ki, qiymətləndirmədə çətinlik yarana bilər. Amma təlim nəticələrinin qiymətləndirilməsindən başlamaq olar. |
| Portfoliolar tələbələrə öz güclü tərəflərini ən yaxşı şəkildə əks etdirən elementləri seçməyə imkan verir. | Portfolioları qiymətləndirən zaman şifahi ünsiyyətə də ehtiyac yaranır. Çünki yazıların sübuta ehtiyacı ola bilər və ya bu müştərək işin nəticəsi ola bilər. |

Yuxarıda aparılan araşdırma nəticəsində məlum oldu ki, istifadə olunan qiymətləndimə texnologiyalarının həm müsbət, həm də mənfi tərəfləri var. Lakin bu onlardan imtina olunma-

sının reallaşdırmaq anlamına gəlməz. Bunu təbii qəbul etmək lazımdır, çünki cəmiyyətə, ölkəyə faydalı vətəndaş yetişdirmək üçün təlim nəticələrinin qiymətləndirilməsi vacibdir.

Qiymətləndirmədə bir neçə fərqli növü araşdırdıq. Bunlar əsasən təqdimatlar, portfolio, yoldaş qiymətləndirməsi, özünü qiymətləndirmə, yazılı imtahanlar, çox seçimli suallar və digər yazı tapşırıqlarıdır.

**Problemin elmi yeniliyi.** Qiymətləndirmənin təhsildə yeri və rolu müəyyənləşdirilmiş və onun təhsilin inkişafında keyfiyyət göstəricilərini təmin etməsi yönündə araşdırma aparılmışdır;

Qiymətləndirmənin tələblərə necə və nə dərəcədə cavab verdiyini, qiymətləndirmənin üstünlükləri və çatışmamazlıqlarını nəzərə alaraq tələbələrin qiymətləndirməyə cəlb edilməsi, yoldaş, özünü qiymətləndirmə və yazılmış rəyin qiymətləndirmənin digər növləri ilə əlaqələndirilərək tələbələrin öyrənmə performansını artırmaqdan ibarətdir.

**Problemin aktuallığı.** Son illərdə tədris və təhsil müəssisələri informasiya və kommunikasiya texnologiyalarından təhsilin keyfiyyətini və səmərəliyini artırmaq üçün istifadə etməyə üstünlük verir. Zamanın tələbi səmərəli, faydalı və səmərəli qiymətləndirmə tətbiq və proqramlarını diqqət mərkəzinə gətirməkdir. Təhsil müəssisələrinin uğurlu qiymətləndirmə fəaliyyəti, o cümlədən səmərəli tətbiqlərdən uğurla istifadə bacarığı müəllim və təhsil müəssisəsi arasındakı uyğun münasibətlərin və doğru planlaşmanın qurulmasından asılıdır. Buna nail olmaq üçün də uyğun planlama ilə qiymətləndirmə həyata keçirilir.

**Problemin praktik əhəmiyyəti**. Seçilmiş qiymətləndirmə növləri və onların həyata keçirilməsində tətbiq olunan metodlar təhsil müəssisələrində xarici dil bacarıqlarının tədrisində qiymətləndirmənin tətbiqinə və təkmilləşdirilməsinə müəyyən qədər yardımçı ola bilər.

**Ədəbiyyat:**


1. Assessment Handbook.(2021) - Ulster University. – s. 7-11. https://www.ulster.ac.uk/__data/assets/pdf_file/0006/306906/Assessment-.pdf
2. M. Nuriyev. Ali məktəblərdə formativ qiymətləndirmənin tətbiqetmə imkanları. - s.23. https://core.ac.uk/download/pdf/161801112.pdf
3. Малинина, И.А., Попова Т.П. (2020). Плюсы и минусы применения метода взаимного оценивания в подготовке инженеров. – Engineering education. – s. 43. *https://aeer.ru/files/io/m27/art_3.pdf*
4. Angelo, T.A., Cross, K.P. Classroom assessment techniques: a handbook for college teachers. – 2nd ed. – San Francisco: Jossey-Bass, -1993.
5. Chapman, C., King, R. Differentiated assessment strategies: One tool doesn’t fit all / Carolyn Chapman, Rita King. – Thousand Oaks: Corwin Press, -2005.
6. Davis, B.G. Tools for Teaching. – 2nd ed. – Jossey-Bass, -2009.
7. Sambell, K. Liz McDowell, Montgomery, C. Assessment for Learning in Higher Education. – Routledge, -2012.


**E-mail:** giskenderova@yahoo.com
**Redaksiyaya daxil olub:** 06.03.2024.